

**FƏTTAH HEYDƏROV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

## AZƏRBAYCAN DÖVLƏTİ HEYDƏR ƏLİYEVİN ŞAH ƏSƏRİDİR

İnsan yarandığı gündən işığa doğru can atıb. İşıq ümiddir, arzudur, inamdır, gələcəkdir. İşıq zülmət qaranlığın bağrını yaran aydınlıq meyarıdır, həqiqətdir. Və həqiqət üçün gecənin qaranlığı lazımdır ki, o ap-aydın görünsün. Həqiqət insan ömrünün ağappaq, kəhkəşan işığıdır. Zülmət gecələrdə yolunu azanlar tarix boyu iynə sorağı qədər uzaqdan görünən işığı özlərinə mayaq kimi seçərək, ona doğru addımlayıblar, o işıqda özlərinə nicat tapıblar.

... Bu gün bizim üçün bu işıq, bu həqiqət Heydər Əliyevdir. Əgər bir anlıq tarix sərgisində yaddaşımızda iz salan şəxsiyyətləri göz önünə gətirsək, mübaliğəsiz demək olar ki, ilk baxışda əzəmətli duruşu, məğrur görkəmi, işıqlı siması ilə canlanan—Heydər Əliyevi görəcəyik.

Böyük yaradanın nəsib etdiyi yenilməz iradə, müdrik uzaqgörənlik və tükənməz enerji sahibi olan bu nadir insan bütün həyatını və fəaliyyətini mənsub olduğu Azərbaycan xalqına həsr etmişdir. Yarım əsrdən çox bir zamanı əhatə edən, Vətənə və xalqa sonsuz sevgi və məhəbbətlə dolu olan bu fəaliyyət göz muncuğu kimi müqəddəs bir varlığın - bugünkü müstəqil, azad, suveren Azərbaycan dövlətinin varlığına və əbədiliyinə gətirib çıxarmışdır.

Bu sətirləri yaza-yaza müdriklərdən birinin yaddaşıma işıq salan belə bir kəlamını xatırlamaq istərdim. Dahi şəxsiyyət təbiətin hadisəsidir. O, hələm-hələm yetişmir. O, hansı xalqda varsa, olubsa, o xalq xoşbəxtdir. Taleyimizə minnətdar olmalıyıq. Minnətdar olmalıyıq, ona görə ki, zəmanənin müdrik ağsaqqalı, millətimizin təəssübkeşi, dünya azərbaycanlılarının sərkərdəsi və müdrik rəhbəri bizimlə, xalqla bir yerdədir.

Sirr deyil ki, Heydər Əliyev gəncliyində memar olmaq istəyirdi. İstəyirdi ki, yaratdığı sənət nümunələri əbədiyaşarlıq nümunəsi olsun. Amma insanın yaşamına, taleyinə rövnəq verən illər onu siyasət meydanında sınamaq istədi. Haqlı olaraq bu gün Heydər Əliyevi qurub-yaradan siyasətçi kimi qəbul edirlər. Çünki O, sözün əsl mənasında təptəzə bir Azərbaycanın qurucusudur. Müstəqil Azərbaycan dövlətinin memarıdır. Dürüst desək, Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir. Onun xarakterindəki bütövlük, qətiyyət, cəsarət, sədaqət və səmimiyyət fitrətdən gəlir. Əsrlər boyu başı bəlalar çəkmiş bir xalqa Heydər Əliyevi xilaskar kimi göndərib. Belə bir deyim var: «Hər dövrün öz qurtuluş yolu var, tənəzzüldən. Hər xalqın öz qurtuluş yolu var, yad millətin ağalığından».



Ötən əsrlər xalqımızın ən mürəkkəb, keşməkeşli dövrü kimi xarakterizə olunub. Son əsrin əvvəllərində əldə edilən müstəqilliyi qoruyub saxlamaq mümkün olmasa da, əsrin sonuna yaxın xalqımız özündə qüvvə taparaq azad yaşamaq istəyini, qətiyyətini, arzusunu gerçəkləşdirərək yenidən öz müstəqilliyini əldə edə bildi. Təbii ki, bu müstəqilliyi əldə etmək məsələnin bir tərəfi idisə, onu qoruyub saxlamaq, möhkəmləndirmək, öz varlığını dünyaya sübut etmək, dünyanın nəzərində müstəqil bir ölkə statusunu qazanmaq daha çətin idi. Heydər Əliyev o dövru – keçmiş sovetlər ittifaqı tərkibində yaşadığımız dövrü xarakterizə edərək demişdir: «Bu illər bizim xalqımız, millətimiz üçün bir tərəfdən faciələr, itkilər, məhrumiyyətlər illəri olmuş, eyni zamanda xalqımızın maariflənməsi, təhsil alması, inkişaf etməsi, Azərbaycanda böyük iqtisadi potensialın yaranması, xalqımızın dünya mənəvi dəyərlərinə qovuşması sayəsində müsbət rol oynamışdır.»

Bu danılmaz həqiqətdir. Biz fikrən o dövrün tarixi faktlarını təhlil edərək görürük ki, möhtərəm Heydər Əliyev Azərbaycanın gələcəkdə müstəqillik qazanacağını, müstəqillik yolu ilə addımlayacağını ölkəyə əvvəlki rəhbərliyi dövründə (1969-1982-ci illər) fəhmlə duymuş, görmüş və cəsarətli addımlar ataraq, gələcək müstəqil Azərbaycanın iqtisadi, sosial və elmi-texniki potensialının kompleks planını həyata keçirmişdir. Həmin illərdə cəmiyyətin mənən və cismən çürüməsinin qarşısı alınaraq sərt sovet qadağalarının tüğyan etdiyi bir vaxtda əməlləri ilə xalqı, milləti, özünüdərkə, oyanışa səsləmiş, yad ünsürlərdən uzaq milli ədəbiyyat, mədəniyyət yaratmağa, qədimliyimizdən, ululuğumuzdan xəbər verən tarix yazmağa çağırmışdır. 1969-cu ildən başlayaraq, təkcə Bakı deyil, bütövlükdə Azərbaycan böyük tikinti meydanına çevrilmişdi. On dörd il ərzində Azərbaycanda 250-dən çox zavod, fabrik, istehsalat müəssisələri işə salınmış, insan ayağının hənirinə həsrət qalan yerlərdə yeni yaşayış məskənləri inşa edilmiş, Bakının qoynunda ikinci Bakı yaradılmış, bir sözlə, bu gün müstəqil dövlətimizin əsasını təşkil edən iqtisadi, siyasi, mədəni potensialımız məhz o illərdə yaradılmışdı. Tikilən nəhəng müəssisələr sırasında Bakı Məişət Kondisionerləri zavodu, Bakı Məişət Soyuducuları zavodu, Sumqayıt Kompressorlar zavodu, onlarca digər sənaye müəssisələri, respublikamızın mədəni və siyasi həyatında mühüm əhəmiyyəti olan Respublika sarayı, müasir Azərbaycan memarlığının qələbəsi sayılan Gülüstan sarayı, Prezident sarayı, Milli Məclis, MTN, Kosmik Tədqiqatlar İnstitutu... yaşayış massivləri və s. o illərin yadigarlarıdır. Belə nəhəng obyektlərin ittifaqın digər respublikalarında yox, məhz Azərbaycanda tikilməsi üçün, sözün əsl mənasında, qətiyyət və cəsarət lazım idi. Bu həm böyük maliyyə vəsaiti, həm də əhalinin böyük bir hissəsinin iş yerlərilə təmin olunması deməkdi. Eyni zamanda, bütün bunlar həm də Qərb və Şərqi özündə birləşdirən Azərbaycanın milli ruhunun qorunması ilə xarakterizə olunurdu. Bakı məhz bu illərdə əsl Azərbaycan şəhəri oldu.

Heç xatirimdən çıxmaz, 1979-cu ildə Naxçıvanın baş tikinti planı müzakirə edilən və mənim də iştirak etdiyim bir tədbirdə Naxçıvanda tikiləcək Mədəniyyət sarayının tikintisindən söhbət düşdü.

H.Əliyev üzünü Azərbaycan Dövlət Tikinti Layihə İnstitutunun rəhbəri, qocaman memar Tahir Abdullayevə və NS-nin sədr müavini Ə.Ləmbəranskiyə tutub soruşdu:

- Sizin milli memarlıq konsepsiyanız varmı?
- Biz onu hazırlayırıq – deyə hər ikisi qəfil sualdan tutuldu.
- Eybi yoxdur, hazırlayın, ancaq təkcə Naxçıvandakı Möminə Xatun abidəsinin memarlıq üslubu sizə 20 il bəs edər, istifadə edin, o vaxta qədər də öz konsepsiyanızı hazırlayarsınız.

(Məhz bu söhbətin nəticəsi olaraq, Naxçıvandakı 1100+400 yerlik tamaşa salonu olan nadir memarlıq nümunəsi – Naxçıvan Respublika sarayı yarandı.)

Bəli, Heydər Əliyev bütün məsələlərdə, onların həyata keçirilməsində milliliyə, tarixi ənənələrə daha çox diqqət yetirirdi və hər kəsə də təlqin edirdi ki, milli ruhu qorusunlar, saxlasınlar. Onun milli təəssübkeşliyi, milli – mənəvi köklərə bağlılığı, tarixə dərindən bələdliyi, siyasi sayıqlığı və milli mənafeyi hər şeydən üstün tutması torpaqlarımızın işğalına susamış xain düşmənlərimizin niyyətlərinə möhkəm sipər çəkmişdi. Heydər Əliyev yeganə rəhbərdir ki, onun dövründə, həm o zaman, həm də indi bir qarış da olsun torpağımız heç kəsə verilməyib. Heydər Əliyevin 70-ci illərdəki hakimiyyəti dövründə Dağlıq Qarabağ məsələsi ermənilər tərəfindən bir neçə dəfə ortaya atılsa da, onların bütün cəhdləri qətiyyətin qarşısında sabun köpüyü kimi dağılmışdı...

İndi bizə aydın olur ki, Heydər Əliyevin gənclər siyasətində tutduğu yol da məhz bugün üçün, müstəqilliyimiz üçün tutulan yol idi. O illər azərbaycanlıların ordudan yayınma tendensiyasına son qoyuldu. 70-ci ildən başlayaraq, gənclərin orduda hərbi xidmətdə hazırlıq keçməsi, xidmət etməsi üçün məqsədyönlü tədbirlər həyata keçirildi. O çalışırdı ki, Azərbaycan gəncləri həyatın bütün sahələrində olan peşələrə sahib olsunlar. Güclü zabit korpusunun yaradılması üçün Cəmşid Naxçıvanski adına hərbi məktəbin fəaliyyətə başlaması gələcəkdə müstəqil Azərbaycan dövlətinin yaradılmasına bir işarə idi.

Heydər Əliyevin gözlə görünən addımları o dövrkü tarixi hünər, gələcəyə tuşlanan aydın yol, milli- mənəvi dəyərlərin qorunub saxlanılması deməkdir. Keçmiş ittifaq məkanında və beynəlxalq aləmdə Azərbaycanın daha yaxşı tanınması da H.Əliyevin danılmaz xidmətidir. Bu illərdə H.Əliyev Azərbaycanda milli mədəniyyətin, milli ədəbiyyatın, milli elmin və təhsilin coşğun inkişafına nail oldu.

Bu sahədə ən yaxşı uğur qazananları özünəməxsus məharətlə dünyaya tanıtdı. S.Rəhimova, R.Rzaya, S.Rüstəmə, T.Salahova, R.Behbudova... Sosialist Əməyi Qəhrəmanı, SSRİ Xalq artisti, Xalq rəssamı... adlarını verməklə təkcə bu adamların qəlbini ovutmurdu, onların hər birinin adının qarşısındakı Azərbaycan sözünü bütün ittifaq və dünyada tanıdırdı, yayırdı və deyirdi: Bəli, belə bir xalq var – Azərbaycan xalqı.

60-cı illərin axırlarında kənd təsərrüfatının mövcud şəraiti elə bir mənzərə yaradırdı ki, sanki bütün imkanlar tükənib, heç bir çıxış yolu yoxdur. Məhz



Heydər Əliyevin rəhbərliyə gəlişi Azərbaycan kəndinə və kənd təsərrüfatına yeni ab-hava gətirdi. Bu sahə ildırım sürəti ilə inkişaf etməyə başladı. Bir neçə il içərisində kəndlərin siması büsbütün dəyişdi, təsərrüfatların potensial imkanları artdı, insanlar özlərinə abad, yaraşıqlı evlər tikdi, maşınlar aldı. Kənd adamlarının güzəranı xeyli yaxşılaşdı. Onun təşəbbüsü ilə üzümçülüyün, pambıqçılığın və digər sahələrin dinamik inkişafına nail olundu. Burada bir incə məqamı da qeyd etmək yerinə düşər ki, Azərbaycanda üzümçülüyün inkişafı kənd adamlarının sosial rifahının təkcə yaxşılaşması ilə səciyyələnmirdi, eyni zamanda aysberqin görünməyən müsbət tərəfi ondan ibarət idi ki, üzümçülüklə məşğul olan insanların qlükozaya olan tələbatı da ödənilirdi. O dövrdə iqtisadi inkişafın əsas ümumi göstəricisi olan milli gəlir də eyni sürətlə artmış, sənaye və kənd təsərrüfatının inkişaf sürəti ittifaq göstəricilərini qabaqlamışdı. Digər tərəfdən, rəhbərlikdə olduğu müddətdə Heydər Əliyev Moskvanın diqqətini pambıqla, üzümlə neftdən yayındırırdı. O nefti Azərbaycan xalqının gələcək nəsilləri üçün qoruyurdu. Bunun üçünsə, həm əsl vətənpərvərlik, həm də böyük müdriklik, cəsarət tələb olunurdu. Bir cəhəti də qeyd edim ki, 30-60-cı illərdə kommunist ideologiyasının tüğyan etdiyi bir vaxtda ateizm siyasətində mövcud olan səhv münasibəti Heydər Əliyev 70-ci illərdə xeyli yumşaltdı, bu sahədə öz siyasətini milli mentalitetə uyğun qurdu. Moskvada işlədiyi müddətdə də o, milli adət-ənənələrimizə, dini- əxlaqi köklərimizə sadiq qaldığını əməli işi ilə göstərdi.

Yuxarıda qeyd etdiyim kimi, 1988-1990-cı illərdə respublikamızda baş verən hadisələr, əvvəlki rəhbərlərin oyuncaq rejimləri zamanı qazanılan müstəqillik daha çox formal xarakter daşıyırdı. 1991-ci ilin oktyabr ayının 18-də «Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı»nın qəbul edilməsi keçmiş ittifaqda 80-ci illərdə baş verən ictimai-siyasi proseslərin məntiqi nəticəsi idi. Bu barədə möhtərəm Prezidentimiz Heydər Əliyev belə demişdir: «1991-ci ildə müstəqilliyi elan etmək çətin bir məsələ deyildi. Çünki bu tarixi zərurətdən irəli gəlmiş bir hadisə idi. SSRİ dağılırdı, istəsən də, istəməsən də sən öz respublikanın aqibətini müəyyən etməli idin. Burada da müstəqillikdən savayı başqa yol yox idi. Amma bu müstəqilliyi qorumaq, saxlamaq, o müstəqilliyi əldə etməkdən qat-qat çətin bir vəzifə idi. Eləcə də 1918-ci ildə. Yaranmış tarixi şərait nəticəsində Azərbaycanda ilk Xalq Cümhuriyyəti yaradıb, ölkəmiz öz dövlət müstəqilliyini elan etdi. Bu böyük tarixə hadisə idi. Ancaq bu müstəqilliyi sona qədər saxlaya bilmədi... Əgər paralel olaraq götürsək, 1991-ci ildə tarixi zərurətdən meydana gələn müstəqillik də Azərbaycan xalqı üçün ən böyük tarixi hadisə idi. Artıq o müstəqilliyi qorumaq, saxlamaq, yaşatmaq və indi artıq 10 il müstəqillik şəraitində yaşamaq ondan qat-qat, heç müqayisə edilməyəcək dərəcədə çətin bir şeydir.»

Azərbaycan dövlətinin müstəqil həyatı özünün bütün çalarları ilə möhtərəm Prezidentimiz Heydər Əliyevin adı ilə bağlıdır. 1990-cı illərin əvvəllərində ölkə düşmən qüvvələrin poliqonuna çevrilmişdi. Özbaşınalıq, xaos, cəbhədə məğlu-

biyyətlər, ölkənin get-gedə parçalanma həddinə gətirib çatdırılması, dövlətçilik, idarəetmə qabiliyyətindən məhrum olanların iqtidara gəlməsi və başqa bu kimi neqativ hallar Azərbaycanı sükansız gəmi həddinə gətirib çıxarmışdı. Baş verən qanunsuzluqların sayı-hesabı yox idi. Xalq öz dərd biləninı, Azərbaycan öz rəhbərini səbrsizliklə gözləyirdi. Yaxın keçmişin yaddaşa ilişib qalan məqamları zaman-zaman unudulmayacaqdır. Möhtərəm Heydər Əliyevin Moskvadan Bakıya gəlişinin qarşısını almaq üçün hansı fitnəkarlıqlara əl atılmadı. Müdrik insan özünün sonsuz cəsarəti ilə ona qarşı tuşlanan bütün sədləri, manеələri yararaq, Moskvadan doğulduğu torpağa – Naxçıvana üz tutdu. Ömrü boyu xatirimdən çıxmaz ki, Naxçıvan camaatı özünün əzizini necə sonsuz sevgi və məhəbbətlə qarşıladı. Bu gəliş Muxtar Respublikanı gözlənilən bütün fəlakətlərdən xilas etdi. Siyasətin gücünə arxalanan Heydər Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda əmin-amanlığı, qayda-qanunu bərpa etdi. Erməni təcavüzkarlarının qarşısını aldı. Xalqın təkidi, xahiş və tələblərindən sonra Naxçıvan MR Ali Məclisinin sədri seçildi. Naxçıvan və Azərbaycan Ali Sovetinə deputat oldu. Azərbaycan Ali Sovetinin XII çağırış I sessiyasında iştirak etmək üçün Bakıya gələndə əslində hər birimiz narahatçılıq hissi keçirirdik . Ona qarşı olan təzyiqləri aydın hiss edirdik. Lakin dahi siyasətçi özünün cəsarəti ilə ona qarşı baş verə biləcək bütün cəhdləri göz önünə gətirərək sessiyada iştirak və çıxış etdi: «Doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm.» Bu sözlərin cazibə qüvvəsi nədədir? İlk növbədə Vətən, Azərbaycan təəssübkeşliyi, xalqa, millətə bağlılığı Heydər Əliyevin fəaliyyətinin ana xəttini təşkil edir. Yaxşı xatırlayıram, 1992-ci ildə Naxçıvanda biz görkəmli Azərbaycan şairi Hüseyn Cavidin 110 illiyini qeyd etməyə hazırlaşırdıq. Bununla əlaqədar tədbirlər planı da işlənib hazırlanmışdı. Təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, o zaman Heydər Əliyevin də qatıldığı bu mərasimdə Azərbaycan iqtidar nümayəndələrindən heç kəs iştirak etmirdi. Yalnız Bakıdan bu tədbirdə iştirak etmək üçün 2 nəfər ziyalı gəlmişdi. Yubiley mərasimində Heydər Əliyev mütəfəkkir şairimiz Hüseyn Cavidin yaradıcılığı haqqında geniş nitq söylədi. Acınacaqlısı o oldu ki, tədbirin ertəsi günü, oktyabrın 24-də Naxçıvanda dövlət çevrilişinə cəhd olundu. Lakin bütün Naxçıvan əhalisi ayağa qalxaraq, Heydər Əliyevin ətrafında sıx birləşərək bu cəhdin qarşısını aldılar. Daha sonra 1993-cü ilin iyun ayında Azərbaycan xalqının təkidi, tələb və xahişindən sonra Heydər Əliyevin yenidən rəhbərliyə qayıdışı müstəqilliyimizin real təhlükədən xilas olması üçün zəruri şəraiti təmin etdi, onun dönməzliyini, əbədiliyini şərtləndirdi. İlk günlərdən etibarən müdrik rəhbərimizin həyata keçirdiyi siyasət bütün dünyaya göstərdi ki, Azərbaycan müstəqil dövlət kimi yaşamağa qadirdir, iqtisadiyyatımızı, siyasətimizi özümüz layiqincə idarə etməyi bacarırıq. Azərbaycan kimi qeyri-sabit, qarşıdurmanın ifrat həddə çatmış olduğu bir məmləkətdə çox qısa bir vaxtda sabitliyin yaradılması



Heydər Əliyev şəxsiyyətinin, şücaətinin, böyüklüyünün ən bariz nümunəsidir. O xalqı qardaş qırğınından, vətəndaş müharibəsindən, ölkəni separatçılıqdan və real parçalanma təhlükəsindən, xalq təsərrüfatının dağılmasından xilas etdi. O illərdə baş verən proseslər barəsində möhtərəm Prezidentin imzaladığı 2001-ci ilin 20 mart tarixli Fərmanında deyilir: «XX əsrdə xalqımızın gərgin əməyi ilə yaradılmış qüdrətli iqtisadi potensialı amansızcasına dağıdıldı, milli sərvətlər talan edildi, ictimai-siyasi həyatda, iqtisadiyyatda hərc-mərclik, bir qarışıqlıq, «dövlət reketi» hökm sürürdü. Belə düşünülməmiş və səriştəsiz siyasət milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə, hakimiyyətin ölkə daxilində nüfuzunun itirilməsinə gətirib çıxardı. Nəticədə 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhvolma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə çatdı. 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkanlardan yaranmış müstəqil dövlətimiz səriştəsiz siyasət nəticəsində süquta uğramaq təhlükəsi ilə üz-üzə qaldı.» Heydər Əliyevin düzgün seçilmiş siyasəti nəticəsində 1993-cü ilin ortalarından başlayaraq, Azərbaycanda hakimiyyətin formalaşdırılmasında güc, zorakılıq tətbiq edilməsi kimi təhlükəli meyllərə birdəfəlik son qoyuldu. Dövlət quruculuğu sahəsində qanunçuluq, dövlət intizamının möhkəmləndirilməsi, rəhbərlik və idarəçilik mexanizmlərinin, ənənələrinin bərpası, Azərbaycan dövlətçiliyinin təməl prinsiplərin təsbit olunduğu qanunvericilik bazasının yaradılması və s. ilə nəticələndi.

Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, sözün əsl mənasında «Ömrümün qalan hissəsini də xalqıma qurban verirəm» deyə öz xalqına sahib çıxması böyük fədakarlıq idi. O, müstəqil Azərbaycanda ölkənin öz xüsusiyyətlərinə uyğun milli demokratik dövlət quruculuğunu müvəffəqiyyətlə həyata keçirir. İqtisadiyyatın inkişafı, adamların rifah halının yaxşılaşdırılması Prezidentin daim diqqət mərkəzində olmuşdur. «Biz həm ölkəmizin suverenliyi, ərazi bütövlüyünü qorumaq üçün çalışırıq, həm də vətəndaşlarımızın rifahını yaxşılaşdırmağa, yaranmış vəziyyətdə müxtəlif yeni formalardan istifadə edərək iqtisadiyyatı inkişaf etdirməyə çalışırıq.» «İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.»

Ölkənin və millətin ən ağır vaxtında hakimiyyətə gələn və ilk gündən etibarən xalqına nicat verəcəyini söyləyən dahi siyasətçi tarixi bir missiyanı - Azərbaycanı, dövlətçiliyi, müstəqilliyi, milli ideologiyanı daxili və xarici düşmənlərin caynağından özünün fitri istedadı, dərin zəkası, uzaqgörənliyi, yuxusuz gecələri ilə qurtara bildi. Konkret olaraq göstərdi ki, əgər kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, son damla qanına qədər onunla mübarizə aparacaqdır. «Azərbaycan dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də, bir Prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram.» Budur milli vətənpərvərlik, vətənə bağlılıq. Təsadüfi deyil ki, bu gün dünyada Heydər Əliyev modeli formalaşıb. Onun atdığı hər bir addım konkret nəticəsini göstərir – müharibədə atəşkəsə nail olun-

ması, dövlət və ordu quruculuğunun uğurla həyata keçirilməsi, dünya ölkələrinin Azərbaycana sabit tərəf kimi baxmaqla onunla taleyüklü tarixi sazişlərin imzalanması və s. bu qəbildəndir. «Əsrin müqaviləsi», sonrakı kontraktlar, iqtisadi islahatların sosial yönümünü gücləndirməklə özəlləşdirmə, bazar iqtisadiyyatı istiqamətində önəmli addımlar atıldı. Azərbaycan Avropa ölkələri arasında öz layiqli yerini tutmaqla dünya miqyasında Ermənistanın formalaşdırmış olduğu bütün rəyləri öz xeyrinə dəyişdi. O, dünyanın hansı ölkəsinə gedirsə, həmin ölkədə yaşayan azərbaycanlılarla görüşməyi özünə mənəvi borc bilir. Eyni zamanda, onları Azərbaycanın problemləri ilə maraqlanmağa, doğma yurd haqqında fikirləşməyə dəvət edir. Onları «mən Azərbaycana nə etmişəm, hansı köməyi göstərmişəm» fikri ətrafında düşünməyə dəvət edir. Dönə-dönə xatırladır ki, azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Heydər Əliyev bütün azərbaycanlıların vahid bir ideya ətrafında birləşməsini arzulayır. Və bu yolda yorulmadan, ardıcıl fəaliyyət göstərir...

Möhtərəm Prezidentimizin Azərbaycan dövlətçiliyinə ən böyük xidmətlərindən biri də hələ 70-ci illərdə Azərbaycan dilinin qorunması, inkişafı ilə bağlı atdığı addımlar olub. Azərbaycan dili Heydər Əliyevin hakimiyyəti illərində xüsusi qayğı və diqqətlə əhatə olunub. Təbii ki, istənilən xalqın milli dövlətçiliyinin formalaşması onun milli dilinin, tarixi-coğrafi ərazisinin və mənəvi dəyərlərinin təşəkkülü ilə sıx bağlıdır. Hər hansı xalqın millət kimi tarix səhnəsindən çıxması üçün onun ana dilinin və milli mənəvi dəyərlərinin ləğv olunması kifayətdir. Hələ SSRİ dövründə, 1978-ci ildə qəbul edilmiş Konstitusiyada Azərbaycan üçün mühüm olan əlamətlərdən biri «Azərbaycan dilinin dövlət dili elan olunması haqqında» Konstitusiyanın 73-cü maddəsinin qəbul edilməsi idi. Bu, totalitar cəmiyyətdə görünməmiş bir hadisə və Heydər Əliyev cəsarətinin parlaq nümunəsi idi.

Sənədin layihəsi Moskvada bir neçə dəfə çox çətin müzakirələrdən keçdikdən sonra Heydər Əliyev Sovetlər İttifaqının o dövrkü rəhbərliyini bu müddəanın saxlanmasına inandıra bilmişdi. Bu haqda möhtərəm Prezidentimiz belə demişdir: «Yadımdadır, 1978-ci ildə biz Azərbaycan Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə, Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük. Hələ 1978-ci ildə qəbul olunmuş Konstitusiyada, bir çox başqa dövlətlərdən fərqli olaraq, Azərbaycan dili haqqında maddə yazdıq və Azərbaycanın dövlət dilinin Azərbaycan dili olduğunu orda göstərdik. Amma bu da bizdə Azərbaycan dilinin hakim olmasını təmin edə bilmədi. Çünki biz böyük bir dövlətin içində idik. Bütün işlər o dildə keçirilirdi.

Amma indi biz Azərbaycan dilini, bizim ana dilimizi, millətimizin dilini hakim dil etmişik və bütün dünyaya nümayiş etdiririk ki, dünyada Azərbaycan xalqı var, Azərbaycan milləti var, Azərbaycan mədəniyyəti var və bu xalqın doğma ana dili – Azərbaycan dili vardır.»



Azərbaycan müstəqil dövlət olduqdan sonra özünün ilk Konstitusiya layihəsi hazırlanarkən, Azərbaycan dili ilə bağlı məsələ ortaya çıxarkən, məhz Heydər Əliyevin müdrik uzaqgörənliyi sayəsində respublikada dövlət dilinin «Azərbaycan dili» olması ilə bağlı müddəa yeni Konstitusiyaya salındı. Bəli, Mustafa Kamal Atatürk türkdilli Türkiyə Cümhuriyyətinin banisi olduğu kimi, Heydər Əliyev də Azərbaycan dilli Azərbaycan dövlətinin banisi və yaradıcısıdır. Bugünkü müstəqil Azərbaycan mübaliğəsiz demək olar ki, Heydər Əliyevin şah əsəridir. Hüquqi, sivil, demokratik quruluşuna görə o, dünyanın bir sıra dövlətlərinə bənzəsə də, onlarla eyniyyət təşkil etmir. Konstitusiya quruluşuna, qanunlarına, əsas xüsusiyyətlərinə görə o, keçmiş postsovet məkanında yaranmış dövlətlərdən millilik və mənəvi əxlaqi prinsipləri baxımından da fərqlənir. Heydər Əliyevin yaratdığı Azərbaycan dövləti dünyada orijinallığı ilə seçilən bir dövlətdir. Bunun isə əsas səbəbi dövlətimizin memarının möhtərəm Heydər Əliyevin özünün orijinallığından irəli gəlir. O, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz olmasını şərtləndirən bütün amilləri – çox uzun bir dövr üçün Azərbaycan dövlətinin siyasi platformasını, iqtisadi əsaslarını, mənəvi və əxlaqi konsepsiyalarını yaratmışdır. Heydər Əliyev «Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır» deyir. Təbii ki, bu müdrik ifadədə adət-ənənələrin gözlənilməsi də diqqəti çəkən məqamlardandır. Möhtərəm Prezidentimizin dini və mənəvi dəyərlərə bağlılığı bütün şüurlu həyatı boyunca onunla bir addımlamışdır. «Dinimizin bizə tövsiyyə etdiyi və qoyduğu bütün adət-ənənələrdən səmərəli surətdə, həyatımızı daha da inkişaf etdirmək üçün istifadə etməliyik» deməklə, möhtərəm Prezidentimiz demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində xalqla bağlı adət-ənənələrin saxlanılmasını tövsiyə edir. Eyni zamanda prezident seçildikdən sonra and içərək əlini Qurani-Şərifin üstünə qoyması soykökümüzə bütün varlığı ilə bağlı olmasının bariz nümunəsidir. Təsadüfi deyildir ki, O, dinin mənəviyyatla bağlı məzmununa böyük diqqət yetirərək deyir: «İslam dini həmişə insanları saflığa, ülvi mənəviyyata dəvət etmişdir...» 1995-ci ildə Kəbəni ziyarət etməsi, uca Allahın dərgahına əl açaraq, Azərbaycanın müstəqilliyinin daimi olması üçün dua etməsi xalqa bağlılığını bir daha sübut edir.

Bir sözlə, tariximizin 80 illik zaman məsafəsi Heydər Əliyev işığına bürünüb və bu gur işıq selində müdrik insana həyatda ən əziz nemət olan can sağlığı, uzun ömür, Azərbaycan dövlətinin çiçəklənməsi naminə daha böyük müvəffəqiyyətlər arzulayırıq. Heydər Əliyev ətrafında sıx birləşməklə müstəqil Azərbaycanın sabahı naminə qazanacağımız uğurlarda Allah bizə yar olsun!